Mayis Səlim



# MƏNİ...

Qarabaxt Xocalının
Qisası alınmasa,
Şuşanın dağlarında
"Koroğlu" çalınmasa -
Məni qəbrə qoymayın.

Yumruğumla yağının
Başını əzməyincə,
Laçını, Kəlbəcəri
Doyunca gəzməyincə -
Məni qəbrə qoymayın.

Hanı Qarabağımın
Köhlən atları, hanı?
Kişnərtisi, harayı
Titrətməsə dünyanı -
Məni qəbrə qoymayın.

Görən nə vaxt boz qurdum
Gəbərdəcək bu iti.
Gorbagor olmayınca
Aşotu, Ayrapeti -
Məni qəbrə qoymayın.

Necə ki gedənlərim
Qayıdıb gəlməyəcək,
Ruhum rahatlaşmayıb
Bir an dincəlməyəcək-
Məni qəbrə qoymayın!

Birdəfəlik qovmadım,
Torpağımdan düşməni,
Üzüqarayam hələ,
Torpaq götürməz məni -
Məni qəbrə qoymayın,
Məni qəbrə qoymayın!

# Sərçə

Ay balaca, boz sərçə,
Xoşbəxtsən, bəxtəvərsən.
Vallah, mənə baxanda
Sən bir nər oğlu, nərsən.

Ürəyin istəyəndə
Qarabağa keçirsən,
Bulağında yuyunub
Suyundan da içirsən.

Bu sərçə ürəyinlə
Məndən çəsarətlisən.
Doğma yurda, yuvaya
Daha sədaqətlisən.

Qoçaqsan, qəhrəmansan,
Mənsə qorxaq, acizəm.
Halalca torpağıma
Ayaq basa bilmirəm.

Mənə tənə eləmə,
Mənə gülmə, amandır,
Heç nə gəlmir əlimdən,
Çarəsizlik yamandır.

Ay balaca, boz sərçə,
Xoşbəxtsən, bəxtəvərsən.
Vallah, bizə baxanda
Sən bir ər oğlu, ərsən.

Ədalət 2019.- 15 oktyabr.- S.8.